# ABŞERONUN BƏZİ QURU SUBTROPİK KULTURALARININ RİZOSFERİNDƏ YAYILMIŞ MİKOBAKTERİYA NÖVLƏRİ

**İradə Babayeva**

*Bakı Dövlət Universiteti, iradah828@gmail.com*

Əncir və tut bitkilərinin rizosferindən ayrılmış mikobakteriyaların növ tərkibi öyrənilmiş, 16 növ mikobakteriya identifikasiya olunmuşdur. Müəyyən edilmişdir ki, bitki növləri mikobakteriyaların növ tərkibinə qarşı seçicidirlər.

Məlumdur ki, müxtəlif bitkilərin rizosferində digər mikroorqanizmlərlə yanaşı, *Micobacterium* cinsinin nümayəndələri də yayılmışdır. Onlar torpaqda və müxtəlif substratlar üzərində yayılmışlar. Saprofit formalardan əlavə, patogen formalara da rast gəlinir. Torpağın ümumi mikrobiotasının 40-60%, bəzən isə 70%-ni mikobakteriyalar təşkil edir.

Təqdim olunan işdə ilk dəfə olaraq Abşeron yarımadası şəraitində yetişdirilən bəzi quru subtropik kulturaların – əncir və tutun rizosferində və eləcə də bitkisiz, kontrol torpaqda olan mikobakteriyaların növ tərkibi verilmişdir.

İki növ bitkinin rizosferindən və kontrol (bitkisiz) torpaqdan götürülmüş 120 ştamdan cəmi 16 mikobakteriya növü ayrılmışdır. O cümlədən əncirin rizosferindən 8, tutun rizosferindən 11, kontrol torpaqdan isə 6 mikobakteriya növü izolə edilmişdir.

İki növ bitkinin rizosferindən və kontrol torpaqdan 3 dominant növ – *Mycobacterium flavum, M.luteum* və *M.hyalinum* aşkar olunmuşdur. Aparılan tədqiqatlar göstərmişdir ki, verilən bitki rizosferlərində mikobakteriyaların növ tərkibi və miqdarı müxtəlifdir.

Ayrı-ayrı növlərin fizioloji və biokimyəvi xüsusiyyətləri öyrənilərkən məlum olmuşdur ki, onların çoxu karbohidrogenləri, karbohidratları, zülalları yaxşı mənimsəyir, bəziləri qeyri-üzvi azot birləşmələrini assimilyasiya edirlər. Mikobakteriya növləri ilə tədqiq olunan bitkilər arasında müəyyən qarşılıqlı münasibət mövcuddur. Bitki növləri mikobakteriya növlərinə seçici münasibət bəsləyirlər. Ümumi mikobakteriya növlərindən yalnız həmin bitkilər üçün xarakterik olan növlər seçilmişdir. Belə ki, əncirin rizosferində *Mycobacterium bifidum, M.lacticum, M.luteum və M.salmonicolor* növlərinə, tutun rizosferində *M.album, M.citreum, M.globiform, M.mucosum, M.nigrum və M.viridians* növlərinə rast gəlinmişdir.

Növlər arasında dominantlıq edənlər də təyin olunmuşdur. Bu növlər *Mycobacterium flavum və M.hyalinum* növləridir ki, bunlara həm əncir, həm tut, həm də kontrol (bitkisiz) torpaqda rast gəlinmişdir.